“Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində məxfi sənədlərlə iş üzrə kargüzarlığın aparılması Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 19 yanvar tarixli 179 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində məxfi sənədlərlə iş üzrə kargüzarlığın aparılması Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 19 yanvar tarixli 179 nömrəli Fərmanını “Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat”ın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 iyul tarixli 569 nömrəli Fərmanına uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

“Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində məxfi sənədlərlə iş üzrə kargüzarlığın aparılması Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 19 yanvar tarixli 179 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, N 1, maddə 13) aşağıdakı dəyişikliklər edilsin:

1. Adında və mətnində “Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində” sözləri “Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında” sözləri ilə əvəz edilsin.

2. Həmin fərmanla təsdiq edilmiş “Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində məxfi sənədlərlə iş üzrə kargüzarlığın aparılması Qaydası” üzrə:

2.1. adında “Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində” sözləri “Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında” sözləri ilə əvəz edilsin;

2.2. I - XIV hissələrin adlarının qarşısındakı rum rəqəmləri müvafiq ərəb rəqəmləri ilə əvəz edilsin;

2.3. 1-ci bənd üzrə:

2.3.1. birinci abzasda “Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat” və “dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində” sözləri, müvafiq olaraq, “dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat” və “dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında” sözləri ilə əvəz edilsin;

2.3.2. ikinci abzas aşağıdakı redaksiyada verilsin:

“Təşkilatlar fəaliyyət istiqamətlərinə əsasən üzərlərinə qoyulmuş vəzifələrin daha səmərəli həyata keçirilməsi üçün, bu qaydaya uyğun olaraq, təşkilatdaxili qaydalarını hazırlamaq hüququna malikdirlər.";

2.3.3. aşağıdakı məzmunda ikinci və üçüncü abzaslar əlavə edilsin:

“Məxfi elektron sənədlərlə iş üzrə kargüzarlıq fəaliyyəti “Elektron imza və elektron sənəd haqqında” Azərbaycan Respublikası Qanununun və “Azərbaycan Respublikasının dövlət orqanlarında informasiya təhlükəsizliyinin təmin edilməsi üzrə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 dekabr tarixli 172 nömrəli Fərmanının tələbləri rəhbər tutulmaqla həyata keçirilir.

Məxfi sənədlərin tərtibinə dair bu qayda ilə müəyyən olunmayan tələblər üzrə Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat”ın müddəaları rəhbər tutulur.";

2.4. 2-ci bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Təşkilatlarda kargüzarlıq Azərbaycan Respublikasının dövlət dilində aparılır.";

2.5. 5-ci bənddə “Qanunvericiliklə” sözü “Dövlət sirri haqqında” Azərbaycan Respublikasının Qanunu ilə və Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən” sözləri ilə əvəz edilsin;

2.6. 8-ci bənddə (hər iki halda) və 9-cu bənddə “bu qaydanın və qanunvericiliyin müvafiq hissəsi ilə” sözləri “Dövlət sirri haqqında” Azərbaycan Respublikasının Qanunu, müvafiq sahəni tənzimləyən digər normativ hüquqi aktlar və bu qayda ilə” sözləri ilə əvəz edilsin;

2.7. 9-cu bənddə “qanunvericiliklə” sözü “qanunla” sözü ilə əvəz edilsin;

2.8. 10-cu və 103-cü bəndlərdən “zəruri hallarda” sözləri çıxarılsın;

2.9. 11-ci bənd üzrə:

2.9.1. beşinci abzasda “qanunvericiliklə müəyyən edilmiş qaydada” sözləri “Telekommunikasiya haqqında” Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydalara uyğun olaraq” sözləri ilə əvəz edilsin;

2.9.2. altıncı abzasdan ", bir qayda olaraq," sözləri çıxarılsın;

2.10. 39-cu bənddən, 52-ci bəndin birinci cümləsindən, 60-cı bəndin birinci abzasının ikinci cümləsindən, 137-ci bəndin dördüncü abzasının birinci cümləsindən və 147-ci bənddən ", bir qayda olaraq," sözləri çıxarılsın;

2.11. 24-cü bənd aşağıdakı redaksiyada verilsin:

“24. Hazırlanmış hər bir sənədin, “Dövlət sirri haqqında” Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinin tələbləri nəzərə alınmaqla, rekvizitləri (sənədin mətnini və xarici əlamətlərini əks etdirən mütləq elementləri) olmalıdır.

Təşkilatın mətbəə üsulu ilə hazırlanan blanklarında rekvizitlər Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat”ın 11-ci bəndinə uyğun olaraq qoyulur (6 nömrəli əlavə).

Sənədin məxfilik qrifi və (və ya) konkret şəxsə ünvanlandığını, literliyini bildirən digər məhdudiyyət işarələri “Dövlət sirri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tərtib edilmiş dövlət sirri təşkil edən məlumatlar siyahısının müvafiq bəndinə istinadla birgə sənədin nömrəsinin altında, sağ küncdə qoyulur.

İcraçı barədə qeyd qoyularkən sənədin son vərəqinin arxadan sol tərəfində sənədin ilkin uçot nömrəsi və tarixi, çap edilmiş nüsxələrinin sayı, çap edildiyi qaralamanın nömrəsi, məxfiliyinin açılması tarixi və ya şərti, yaxud buna səbəb ola biləcək hadisə, sənədi çap edən şəxsin soyadı barədə rekvizitlər də qoyulur.

Hazırlanmış sənədin bütün nüsxələri imzalanır. İmzanın tərkibinə sənədi imzalamış şəxsin vəzifəsinin adı, onun şəxsi imzası, adı və soyadı daxildir. Sənədi imzalamalı olan vəzifəli şəxs müvəqqəti işdə olmadıqda, sənədi onun səlahiyyətlərini icra edən şəxs imzalayır. Dövlət orqanının rəhbərinə göndərilən sənədlər göndərən dövlət orqanının rəhbəri tərəfindən, o olmadıqda isə onun vəzifəsini icra edən müavini tərəfindən imzalanır.

Təşkilatın blank olmayan və sənədləşdirilmiş informasiyanı əks etdirən digər sənədlərinin tərtibatı bu bəndin tələbləri nəzərə alınmaqla, Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat”la tənzimlənir.

İki və daha çox vərəqdə çap edilmiş sənədin hər bir nüsxəsinin ikincidən başlayaraq bütün vərəqlərinin (səhifələrinin) yuxarı sağ küncündə sıra nömrəsi, aşağı orta hissəsində isə sənədin qeydə alınma nömrəsi qoyulur.

Sənədin surətlərində (sənədin əslindəki informasiyanı tam, xarici əlamətlərini isə tam və ya qismən əks etdirən nüsxəsi) birinci vərəqin yuxarı sağ küncündə “Surət", sənəddən çıxarışlarda (sənədin əslindəki informasiyanın bir hissəsini, xarici əlamətlərini isə tam və ya qismən əks etdirən nüsxəsi) isə sənədin adından sonra “Çıxarış” sözü yazılır.";

2.12. 26-cı bəndin birinci abzası aşağıdakı redaksiyada verilsin:

“İki və daha çox təşkilat tərəfindən birgə hazırlanan sənəd blanksız tərtib edilir. Həmin sənəd təşkilat rəhbərinin imzası və təşkilatın gerbli möhürü ilə təsdiq edilir. Birgə hazırlanmış sənədin qeydə alınma nömrəsi sənədin bu təşkilatlar üzrə qeydə alınma nömrələrindən ibarətdir. Nömrələr sənəd müəlliflərinin göstərilmə ardıcıllığına uyğun olaraq, aralarında tire qoyulmaqla yazılır.";

2.13. 30-cu bənddən “zəruri olan” sözləri çıxarılsın;

2.14. 35-ci bənd üzrə:

2.14.1. üçüncü abzasda ", zəruri hallarda digər məhdudiyyət qrifi” sözləri “və (və ya) digər məhdudiyyət işarələri” sözləri ilə əvəz edilsin;

2.14.2. dördüncü abzasda “zəruri hallarda” sözləri “təcili sənədlərdə” sözləri ilə əvəz edilsin;

2.15. 41-ci bənddə “Zəruri hallarda təsviri” və “göndərilə bilər” sözləri, müvafiq olaraq, “Təsviri” və “göndərilir” sözləri ilə əvəz edilsin;

2.16. 42-ci bənddən ", bir qayda olaraq," sözləri çıxarılsın və “qanunvericiliklə” sözü “Poçt haqqında” və “Feldyeger rabitəsi haqqında” Azərbaycan Respublikasının qanunları ilə” sözləri ilə əvəz edilsin;

2.17. 43-cü bənddə “Zəruri hallarda təşkilat” və "çatdırıla bilər” sözləri müvafiq olaraq, “Təşkilat” və "çatdırılır” sözləri ilə əvəz edilsin;

2.18. 47-ci bənd üzrə:

2.18.1. dördüncü abzasda “qanunvericiliklə” sözü “Dövlət sirri haqqında” Azərbaycan Respublikasının Qanunu ilə” sözləri ilə əvəz edilsin;

2.18.2. beşinci abzasdan ", bir qayda olaraq," sözləri çıxarılsın;

2.19. 53-cü bəndin ikinci abzası üçüncü abzas hesab edilsin və aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

“Əsas icraçı sənədin icrası ilə əlaqədar rəhbərliyə məlumat üçün hazırlanmış arayışı digər icraçı (icraçılar) ilə razılaşdırmalıdır. Digər icraçı (icraçılar) arayışla razı olmadıqda, ayrıca arayış tərtib edir və rəhbərliyi məlumatlandırmaq üçün kargüzarlıq xidmətinə təqdim edir.";

2.20. 55-ci bəndin ikinci abzası ləğv edilsin;

2.21. 58-ci bəndin birinci abzası aşağıdakı redaksiyada verilsin:

“Geoloji kəşfiyyat, topoqrafiya, geodeziya, yerquruluşu və s. işləri yerinə yetirən ekspedisiyalara, eləcə də hava və su nəqliyyatının şəxsi heyətinə məlumat daşıyıcıları bu qaydanın 2-ci hissəsi ilə müəyyən edilmiş tələblərə əməl olunmaqla verilir.";

2.22. 88-ci bəndin ikinci abzasında “Zəruri hallarda bu işə” sözləri “Bu işə” sözləri ilə əvəz edilsin;

2.23. 95-ci bənd aşağıdakı redaksiyada verilsin:

“95. Təşkilatda məlumat daşıyıcılarının kino və ya foto çəkilişlərini (bundan sonra - çəkiliş) “Dövlət sirri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq məxfilik rejiminə əməl etməklə müvafiq bölmə (studiya, laboratoriya) həyata keçirir.";

2.24. 98-ci bənddə “qanunvericiliyə” sözü “Dövlət sirri haqqında” Azərbaycan Respublikasının Qanununa” sözləri ilə əvəz edilsin;

2.25. 102-ci bənddən ", bir qayda olaraq," sözləri çıxarılsın və “Müstəsna hallarda” sözləri “Çəkilişin aparılması tələb olunduğu hallarda” sözləri ilə əvəz edilsin;

2.26. 108-ci bənd üzrə:

2.26.1. birinci cümlədən ", bir qayda olaraq," sözləri çıxarılsın;

2.26.2. ikinci cümlə aşağıdakı redaksiyada verilsin:

“Kinokadrlardan fotoşəkillər, sifarişçi ilə razılaşdırılmaqla, təşkilat rəhbərinin göstərişi əsasında çıxarılır və fotosənəd kimi inventar uçotuna götürülür.";

2.27. 118-ci bənd aşağıdakı redaksiyada verilsin:

“118. Tarixi, elmi, mədəni və s. baxımdan xüsusi dəyərə malik və ya nadir sənədin əslinin məhv olması və ya itməsi hallarında onda əks olunan məlumatların saxlanılması və ya bərpası məqsədilə həmin sənədin sığorta surəti hazırlanır.

Sığorta surəti hazırlanmalı sənədlərin siyahısını təşkilat rəhbəri təsdiq edir.

Siyahıda göstərilən sənədlərin sığorta surətlərinin hazırlanması məqsədilə DSMB, məxfilik rejiminin təmin edilməsi şərtilə, həmin sənədləri “Milli arxiv fondu haqqında” Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydaya uyğun olaraq, müşayiət məktubu ilə müvafiq laboratoriyalara, studiyalara və s. dəst şəklində və ya hər birini ayrılıqda göndərir.";

2.28. 126-cı bənddə “qanunvericiliyə” sözü “Milli arxiv fondu haqqında” Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydaya” sözləri ilə əvəz edilsin;

2.29. 129-cu bənddə “belə işlərin görülməsinə qanunvericiliyə uyğun icazəsi olan” sözləri “Dövlət sirri haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq məxfilik rejiminə əməl etmək şərtilə müvafiq” sözləri ilə, “qanunvericiliklə” sözü “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” və “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında” Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq, Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən” sözləri ilə əvəz edilsin;

2.30. 163-cü bənd üzrə:

2.30.1. birinci abzasda “verilə bilər” sözləri “verilir” sözü ilə əvəz edilsin;

2.30.2. üçüncü abzas aşağıdakı redaksiyada verilsin:

“DSMB rəhbəri işi məlumat daşıyıcıları ilə iş yerində tanış olmağa buraxılmış icraçılara vermək hüququna malikdir.";

2.31. 164-cü bənd üzrə:

2.31.1. birinci abzasda “Zəruri hallarda işə daxil edilmiş” sözləri “İşə daxil edilmiş” sözləri ilə, “verilə bilər” sözləri “verilir” sözü ilə əvəz edilsin;

2.31.2. ikinci abzasda “Müstəsna hallarda sənəd işə (cildə) qaytarılmamaq şərti ilə işdən (cilddən) çıxarıla bilər. Bu halda” sözləri “Sənədin işə (cildə) qaytarılmamaq şərtilə işdən (cilddən) çıxarıldığı hallarda” sözləri ilə əvəz edilsin;

2.32. 169-cu, 178-ci (hər iki halda) və 181-ci bəndlərdə “qanunvericiliklə” sözü “Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən” sözləri ilə əvəz edilsin;

2.33. 171-ci bənddə “qanunvericiliklə” sözü “Dövlət sirri haqqında” Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada” sözləri ilə əvəz edilsin;

2.34. 172-ci bənddən “qanunvericiliklə müəyyən edilmiş qaydada” sözləri çıxarılsın;

2.35. 183-cü bənd üzrə:

2.35.1. birinci cümlədə “qanunvericiliyi” və “qanunvericiliklə” sözləri, müvafiq olaraq, “normativ hüquqi aktları” və “Milli arxiv fondu haqqında” Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydaya əsasən” sözləri ilə əvəz edilsin;

2.35.2. ikinci cümlədə “qanunvericiliklə” sözü “Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən” sözləri ilə əvəz edilsin;

2.36. 185-ci bənddə “qanunvericiliklə” sözü və 188-ci bənddə “qanunvericiliyə” sözü, müvafiq olaraq, “normativ hüquqi aktlarla” və “normativ hüquqi aktlara” sözləri ilə əvəz edilsin;

2.37. 190-cı bəndin birinci abzasında “Zəruri hallarda təşkilatın” sözləri “Təşkilatın” sözü ilə əvəz edilsin;

2.38. 191-ci bənddə “qanunvericiliklə” sözü “Dövlət sirri haqqında” Azərbaycan Respublikasının Qanunu ilə” sözləri ilə əvəz edilsin;

2.39. Qaydaya 6 nömrəli əlavə aşağıdakı redaksiyada verilsin:

“Təşkilat blankının nümunəsi
(eninə)

Azərbaycan Respublikası Dövlət gerbinin təsviri

AZƏRBAYCAN RESPUBLİKASININ

DAXİLİ İŞLƏR NAZİRLİYİ

Poçt indeksi _____, Bakı şəhəri, _____küçəsi_____
Tel:_____ Faks:_____ Elektron poçt:_____
_____
"___"_____il N_____".

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 iyul 2016-cı il